# Şəhərlər və regionlar: Uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Pakt

Avropa Şurasının **"BEŞDƏN BİRİ"** kampaniyasına Yerli və regional hakimiyyət orqanları konqressinin töhfəsi

14 sentyabr 2012-ci ildə Konqressin Bürosu tərəfindən təsdiqlənib

Tərtibat: Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqressi
Nəşr: Fevral 2013-cü il
Azeri

# Mündəricat

**Paktın təqdimatı ____ 5**

Söhbət nədən gedir? ____ 5

Bu fəaliyyətlərə yerli və regional hakimiyyət orqanlarının cəlb olunması nə üçün zəruridir? ____ 5

Konqrees nə təklif edir? ____ 6

Avropa Şurasının Konqressi yerli və regional hakimiyyət orqanlarının nələri etməsini istəyir? ____ 7

Konqressin şəhər və regionlarının uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktı nədir? ____ 8

Paktın imzalanması nələri əhatə edir? ____ 9

Əsas tərəfdaşlar kimlərdir? ____ 9

**Dörd əsas fəaliyyət istiqamətləri hansılardır? ____ 10**

Dörd prinsip: qabaqlama ____ 10

Dörd prinsip: müdafiə ____ 16

Dörd prinsip: təqib ____ 18

Dörd prinsip: iştirakçılıq ____ 19

**Regional səviyyədə hansı konkret addımlar atıla bilər?19**

**Pakt praktikada necə işləyəcək? ____ 20**

İnternetdə "Paktın platformasında" qeydiyyat ____ 20

**Yerli və regional hakimiyyət orqanları üçün fəaliyyətlərin siyahısı ____ 21**

Qabaqlama ____ 21

Müdafiə ____ 21

**Sənədlər və istinad üçün saytlar ____ 23**

# Paktın təqdimatı

## Söhbət nədən gedir?

Mövcud məlumatlara əsasən, Avropada təxminən beş uşaqdan biri uşaqlara qarşı zorakılığın ən pis formalarından biri olan seksual zorakılığın qurbanına çevrilir. Seksual zorakılıq müxtəlif formalar ala bilər ki, buraya insest, pornoqrafiya, fahişəlik, insan alveri, korrupsiya, İnternet vasitəsilə təqibetmə, seksual istismar və nalayiq seksual hərəkətlər daxildir. Bütün bunlar uşaqların psixi və fiziki sağlamlığına ciddi ziyan yetirə bilər və həqiqətən yetirir. Nalayiq seksyal hərəkətlərin nəticələri uşaqlar böyüdükdən sonra da onları təqib edir – bunları yaşamış şəxslər çox zaman bütün bunları daxillərində gizlənən üzüntü və ağrı kimi təsvir edirlər.

2010-cu ildə Avropa Şurası uşaqlara qarşı seksual zorakılığın aradan qaldırılması üçün kampaniyaya başladı. "BEŞDƏN BİRİ" adlı bu kampaniya bu problemin miqyasını əks etdirir və Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının (bundan sonra "Lansarote Konvensiyası" adlandırılacaq) imzalanmasına, ratifikasiyasına və yerinə yetirilməsinə; habelə uşaqların, onların ailələrinin, qəyyumlarının və bütövlükdə cəmiyyətin uşaqlara qarşı seksual zorakılığın və nalayiq hərəkətlərin qarşısını almaq və onları belə hallardan müdafiə etmək üçün məlumatlandırılmasına və lazımi vasitələrlə təmin edilməsinə və beləliklə bu halların miqyası barədə məlumatlılığın artırılmasına yönəlib.

## Bu fəaliyyətlərə yerli və regional hakimiyyət orqanlarının cəlb olunması nə üçün zəruridir?

Yerli və regional hakimiyyət orqanları ərazilərində yaşayan uşaqların və gənclərin təhlükəsizliyinin və rifahının təmin və təşviq edilməsinə görə cavabdehlik daşıyırlar və bu sahədə öz tərəfdaşları ilə, məsələn, üçüncü sektorla, ictimai təşkilatlarla və özəl təşkilatlarla birgə çalışmalıdırlar. Onlar dörd əsas fəaliyyət istiqamətlərini – qabaqlama, müdafiə, təqib və iştirakçılıq prinsiplərini nəzərdə tutan yanaşmanı qəbul etməlidirlər. Uşaqlara qarşı seksual zorakılıq halları ilə və

nalayiq seksual hərəkətlərlə qarşılaşan Avropanın şəhər və regionlarının vəzifəsi bu problem barədə məlumatlılığın artırılmasından, yerlərdə yuxarıdakı dörd yanaşmaya əsaslanan fəaliyyət planlarının və stretagiyalarının hazırlanmasından və həyata keçirilməsindən, habelə xidmətlərin yaxşılaşdırılmasına vəsait qoyulmasından ibarətdir. Bütün xidmətlər və fəaliyyətlər həyata keçirilərkən uşaqların hüquqlarına hörmət edilməli, uşaqların üstün maraqları önə çəkilməli, uşaqların dinlənilməsinə şərait yaradılmalıdır ki, yerlərdə seksual zorakılığın və nalayiq seksual hərəkətlərin dayandırılmasına, habelə bu cür hərəkətləri törədənlərin məsuliyyətə cəlb olunmasına yönələn, uşaqlar və onların ailələri üçün zəruri olan tədbirlər görülsün.

## Konqress nə təklif edir?

Yerli və regional səviyyələrdə "BEŞDƏN BİRİ" kampaniyasının aspektlərini əhatə etmək üçün Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqressi aşağıdakı konkret məqsədləri qarşıya qoyan Strateji Fəaliyyət Planı qəbul edib:

1. Konqressin üzvləri, yerli və regional hakimiyyət orqanları, yerli və regional hakimiyyət orqanlarının assosiasiyaları və digər tərəfdaşlar arasında bu kampaniyanın məqsədləri barədə məlumatlılığın artırılması;
2. uşaqları zorakılığın hər cür formalarından müdafiə etmək üçün struktur və mexanimlər yaradılarkən Avropa Şurasının hüquq standartlarından və sənədlərindən (Lansarote Konvensiyasından və Uşaqların maraqlarını nəzərə alan ədalət mühakiməsinin rəhbər prinsiplərindən) istifadənin təşviq edilməsi;
3. uşaqlara qarşı seksual zorakılığın qarşısının alınmasına yönələn kampaniyalara başlanılmasında və bu sahədə məlumatlılığı artıran vasitələrin hazırlanmasında, xüsusən uşaqlarla seksual zorakılıq barəsində uşaq psixikasına uyğun formada söhbət etməkdə valideynlərə və qəyyumlara yardım edən və bu sahədə onların məlumatlılığını artıran kampaniya materiallarının ("Alt paltarına dair qayda") yayılmasında və mənimsənilməsində yerli və regional hakimiyyət orqanlarına yardəm göstərilməsi;

4. uşaqlar barəsində seksual zorakılığa qarşı mübarizə sahəsində çoxtərəfli yanaşmanın təşviq edilməsi və koordinasiya olunan çoxsahəli strukturların, proseslərin və mexanizmlərin hazırlanmasına yerli və regional hakimiyyət orqanlarının həvəsləndirilməsi;
5. şəhər və regionların uşaqların maraqlarına daha çox uyğunlaşdırılmasına, habelə seksual zorakılığın olmadığı təhlükəsiz icmaların formalaşmasında uşaqların və gənclərin real iştirakına imkan yaradılmasına yönələn mədəni ənənənin formalaşdırılması.

## Avropa Şurasının Konqressi yerli və regional hakimiyyət orqanlarının nələri etməsini istəyir?

Yerli səviyyədə fəaliyyətlər, belə görünür ki, məhduddur və 2010-cu ildə Birləşmiş Krallıqda aparılmış tədqiqat göstərir ki, bu iştirakçı dövlətdə yerli hakimiyyət orqanlarının dörddə birindən az qismi uşaqların seksual istismardan müdafiəsinə yönələn strategiyaya malikdir.[1] Araşdırmalar və mövcud məlumatlar göstərir ki, uşaqlarln seksual istismarı təkcə Birləşmiş Krallıqda deyil, həm də Avropa Şurasının üzvü olan 47 dövlətin hər birinin bütün bölgələrində **baş verir**, hərçənd ki, məlumatların toplanması metodları bu qənaətin təsdiqi üçün heç də bütün hallarda yetərli səviyyədə olmur.

Buna görə də Konqressin məqsədi "BEŞDƏN BİRİ" kampaniyasını təşviq etməkdən və yerli və regional hakimiyyət orqanlarının Lansarote Konvensiyası barəsində məlumatlılığının səviyyəsini artırmaqdan ibarətdir ki, bu da uşaqların maraqlarını nəzərə alan, uşaqların müdafiəsinə və cəmiyyətdə seksual zorakılığın qarşısının alınmasına yönələn yerli və regional xidmətlərin təşəkkül tapmasına şərait yaratmış olacaq.

Bunları nəzərə alaraq Avropa Şurasının Konqressi bütün şəhər və regionları **Konqressin şəhər və regionlarının uşaqlara qarşı**

[1] Bax: "What’s going on to safeguard children and young people from sexual exploitation?" Jago et al, October 2011.

**seksual zorakılığa son qoyulması haqqında Paktını** imzalamaqla "BEŞDƏN BİRİ" kampaniyasında iştirak etməyə çağırır.

## Konqressin şəhər və regionlarının uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktı nədir?

Yuxarıda qeyd edilən bütün dörd istiqamət üzrə fəaliyyətlərin həyata keçirilməsi nəinki arzuediləndir, həm də zəruridir. Konqress kifayət qədər məhdud həcmdə ictimai maliyyləşdirmə tələb edən, bəzi hallarda isə ümumiyyətlə maliyyə tələb etməyən fəaliyyət növlərindən tutmuş konkret strategiyaların işlənib hazırlanması və müvafiq strukturların yaradılması zərurəti ilə əlaqədar olaraq əhəmiyyətli vəsait qoyuluşu tələb edən digər fəaliyyət növlərinə qədər mümkün fəaliyyətlərin siyahısını tərtib edib. Məsrəflər nə qədər olursa-osun, uşaqlara qarşı seksual zorakılığın və nalayiq seksual hərəkətlərin dayandırılmasına yönələn fəaliyyətlər həmişə "rentabelli" olacaq, çünki bu vəsaitlər insan hüquqlarına hörmət edilməsinə əsaslanan sağlam cəmiyyətə qoyulan vəsaitlərdir.

Konqressin yekun məqsədi uşaqlar barəsində seksual zorakılığa qarşı mübarizə üzrə koordinasiyalı çoxsahəli strukturların, proseslərin və mexanizmlərin hazırlanmasına mümkün qədər çoxlu sayda yerli və regional şuraları və parlamentləri cəlb etmək olsa da, birinci mərhələdə şəhərlər və regionlar "BEŞDƏN BİRİ" kampaniyasına öz töhfələrini tədricən verə bilərlər, məsələn, ilkin mərhələdə fəaliyyətə daha sadə səviyyədən, misal üçün öz İnternet saytlarında əlaqələndiricilər (linklər) yerləşdirməklə kampaniya barədə məlumatlar yaymaqdan başlaya bilərlər.

Konqress 47 üzv dövlətlərin hamısının yerli və regional hakimiyyət orqanlarını bu Paktı imzalamağa və bizim təqdim etdiyimiz fəaliyyətlər siyahısında sadalanan fəaliyyətlərdən ən azı birini həyata keçirməyə başlamağa və koordinasiyalı çoxsahəli strukturların, proseslərin və mexanizmlərin hazırlanmasını özünün yekun məqsədi kimi qəbul etməklə uşaqlar barəsində seksual zorakılığa və nalayiq seksual hərəkətlərə qarşı mübarizədə irəliləyişə nail olmağa çağırır.

## Paktın imzalanması nələri əhatə edir?

Paktın iştirakçısı olacaq şəhərlər və regionlar bu broşürdə sadalanan fəaliyyətlərin mümkün qədər çox qismini, yaxud Konqressin məqsədinə nail olunmasına kömək edəcək hər hansı digər fəaliyyətləri həyata keçirməklə Konqressin məqsədini gerçəkləşdirməyi, yəni uşaqlara qarşı zorakılıq və nalayiq seksual hərəkətlər edilməsi problemi barədə məlumatlılıq səviyyəsinin artırılması və bu problemin aradan qaldırılması üçün zəruri olan strukturları yaratmağı öhdələrinə götürəcəklər.

## Əsas tərəfdaşlar kimlərdir?

Avropa Şurası 47 üzv dövlətdə hökumətlər tərəfindən təyin olunan koordinasiya strukturları şəbəkəsi yaradıb və bu strukturlar yerli hakimiyyət orqanlarına məsləhətlər verə və artıq bu kampaniya çərçivəsində aktiv çalışan çoxsaylı QHT-lərlə və vətəndaş cəmiyyəti qrupları ilə səylərini birləşdirməkdə onlara kömək edə bilərlər. Bir neçə üzv dövlətdə milli kampaniya qrupları yaradılıb ki, onlar bu kampaniya çərçivəsində işləri koordinasiya və icra edirlər və yerli və regional səviyyədə öz tövsiyələrini verə bilərlər. Həmçinin bələdiyyələr və regionlar öz ölkələrində müvafiq nazirliklərlə əlaqələr yarada bilərlər.

Avropa Şurasının Parlament Assambleyası uşaqlar barəsində seksual zorakılığa qarşı mübarizə sahəsində milli, Avropa və beynəlxalq səviyyədə parlamentlərin fəaliyyətlərinin koordinasıyası məqsədi ilə Əlaqələr üçün parlament üzvləri şəbəkəsi yaradıb. Hazırda 49 üzvü olan Şəbəkə qanunverici və siyasi təşəbbüslər sahəsində bütün üzv dövlətlərdə tətbiq edilən ən yaxşı təcrübələrin mübadiləsinə yardım göstərir.

## Dörd əsas fəaliyyət istiqamətləri hansılardır?

Yerli və regional hakimiyyət orqanlarının yekun məqsədi uşaqların istismarının qarşısını almaqdan ibarət olmalıdır. Bunun üçün onlar uşaqların və gənclərin müdafiə və himayə ilə təmin edilməsinə və eyni zamanda zorakılıq aktlarını törədənlərin məhkəmə qaydasında təqib

olunmasına ictimai sektordakı təsistatların daha çox cəlb olunması üçün hansı addımların atılmalı olduğu barədə qərarlar qəbul etməlidirlər. Yerli və regional hakimiyyət orqanları nalayiq hərəkətlərin qarşısının alınması, zərərçəkənlərin müdafiə edilməsi, zorakılıq aktlarını törədənlərin məhkəmə qaydasında təqib olunması, habelə bütün bu proseslərdə uşaqların tam iştirakının təmin olunmasına yönələn dörd prinsipə: qabaqlama, müdafiə, təqib və iştriakçılıq prinsiplərinə əsaslanan yanaşmanı rəhbər tutumalıdırlar.

Bu bölmədə siz həyata keçirilməsi zəruri olan fəaliyyətlər barədə məlumatlarla, habelə onların nə üçün zəruri olduğuna dair informasiyalarla tanış olacaqsınız.

## Dörd prinsip: qabaqlama

Bir sıra qabaqlayıcı tədbirlər var ki, onlar uşaqlara qarşı seksual istismarın və nalayiq seksual hərəkətlərin qarşısının alınmasına yardım üçün yerli və regional səviyyələrdə həyata keçirilə bilər.

***Məlumatlılığın artırılması***

Yerli və regional hakimiyyət orqanları uşaqlara qarşı nalayiq seksual hərəkətlərin və seksual zorakılıqların qarşısının alınmasına yönələn, uşaqların, uşaqlarla işləyən mütəxəssislərin, ailələrin, qəyyumların və bütövlükdə ictimaiyyətin məlumatlılığının artırılması məqsədini daşıyan proqramlar və siyasət hazırlaya bilərlər. Məlumatlılığın artırılması cəmiyyətdə dəyişikliklər baş verməsinə və qabaqlayıcı tədbirlərin cəmiyyət tərəfindən dəstəklənməsinə kömək edə bilər.

Qabaqlayıcı proqramlar və strategiyalar xidmətlərin səmərəli və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün bütün maraqlı tərəflərin yetərli və yüksək keyfiyyətli peşə hazırlığına malik olmasını təmin etməlidir. Maraqlı tərəflərə uşaqlarla müntəzəm təmasda olan bütün şəxslər, məsələn, sosial xidmət işçiləri, səhiyyə mütəxəssisləri, müəllimlər (məktəbəqədər təhsildən tutumuş orta təhsilə qədər bütün səviyyələrdə), polis əməkdaşları, habelə mədəniyyət, istirahət və idman komplekslərində, kilsələrdə, gənclər üçün mərkəzlərdə çalışanlar, hüquq-mühafizə orqanlarının əməkdaşları və s. daxildir.

**Fəaliyyətlərə dair təkliflər**

- Şəhərin və regionun saytında Avropa Şurasının "BEŞDƏN BİRİ" kampaniyasının saytı ilə əlaqələndirici (link) yerləşdirmək
- Məktəblərdə və gənclər üçün mərkəzlərdə uşaqlar və personal üçün məlumatlandırıcı məşğələlər təşkil etmək
- İnformasiyaların və rəhbər prinsiplərin yer aldığı bülletenləri və vərəqələri yaymaq
- Yerli və regional mütəxəssislərə təlimlər keçmək
- Mütəxəssislər və ictimaiyyət üçün müzakirələr və seminarlar təşkil etmək
- Bu problemlərə diqqəti cəlb etmək üçün "Avropada yerli demokratiya həftəsi"ndən istifadə etmək
- QHT-lərlə, media ilə və özəl sektorla əməkdaşlıq etmək

Nəzərə alsaq ki, risk altında olan uşaqların ilkin mərhələdəcə müəyyənləşdirilməsi istənilən strategiyanın tərkib hissəsi olmalıdır, uşaqlara qarşı seksual istismar və nalayiq seksual hərəkətlər barəsində zəruri biliklər mümkün qədər geniş yayılmalı və seksual zorakılığa dəlalət edən əlamətləri, məsələn, uşağın davranışındakı dəyişiklikləri necə aşkar etmək barədə məlumatlılıq artırılmalıdır.

Valideynlər, ailələr və qəyyumlar həmçinin uşaqlara qarşı seksual istismarın və nalayiq seksual hərəkətlərin əlamətlərini necə aşkara çıxarmağı, by zaman hansı hərəkətləri etməyin tələb olunduğunu öyrənməli və onların uşaqlar və ailələr üçün doğuracağı nəticələri bilməlidirlər.

Həmçinin qabaqlayıcı tədbirlərə, məsələn, İnternet saytlarının monitorinqinin aparılmasına dair təlimlər keçilməli və uşaqların özlərini müdafiə etmələrinə köməklik göstərilməlidir, misal üçün İnternetdəki zərərli informasiyaları necə müəyyənləşdirməyi, yaxud tanışları olmayan, amma onlara dostluqlarını təklif edən (onları "şirnikləndirən") şəxslərlə yolverilməz təmaslardan çəkinməyi uşaqlara öyrətmək lazımdır. Bu cür hazırlıq valideynlərə də şamil olunmalıdır, onlara İnternet saytlarının monitorinqini necə aparmağı və İnternetə girişə necə nəzarət etməyi öyrətmək lazımdır; həmçinin uşaqlara İnternetlə bağlı risklər və təhlükələr barədə məlumat verilməlidir. Uşaqlar, valideynlər, müəllimlər və ailələr üçün İnternetdə təhlükəsizliyin təmin edilməsi vasitələri QHT-lərlə və ya digər təşkilatlarla əməkdaşlıq şəraitində hazırlana bilər, yaxud da artıq mövcud olan məlumatlandırma vasitələrindən istifadə oluna bilər.

**Fəaliyyətlərə dair təkliflər**

- Uşaqlara yardım edilməsinə yönələn bir sıra milli və Avropa telefon xətlərinin fəaliyyətini təmin etmək
- Şəhərin və ya regionun saytında operativ yardım və məsləhət üçün əlaqələndirici (link) yerləşdirmək
- Faydalı telefon nömrələrinin və ünvanların olduğu kiçik və istifadə üçün rahat olan yaddaş kartlarını hazırlamaq və bütün məktəblilərə paylamaq
- Hər bir ailə üçün maqnitlə soyuducunun qapısına yapışdırılan, faydalı telefon nömrələrinin və ünvanların olduğu siyahı hazırlamaq
- Uşaqların tez-tez olduğu yerlərdə yardım üçün onların haraya müraciət etməli olduqlarını göstərən plakatlar yerləşdirmək
- Uşaqlar üçün nəzərdə tutulan maarifləndirici materialları məktəblərdə və gənclər üçün klublarda yaymaq
- İnternetdə təhlkəsiz davranış barədə bülletenlər və ya vərəqələr yaymaq
- İnternetdə baş verən qanunsuz fəaliyyətlər barədə xəbər verilməsinə şərait yaratmaq

Məlumatlandırıcı tədbirlər həmçinin geniş ictimaiyyətə ünvanlanmalı və ictimaiyyət bu hal barəsində və görülə biləcək qabaqlayıcı tədbirlər haqqında məlumat almalıdır. Şəhərlərin və regionların saytlarında Avropa Şurasının "BEŞDƏN BİRİ" kampaniyasının saytı ilə əlaqələndiricinin (linkin) yerləşdirilməsi buna nail olmağın bir

yoludur. Həmçinin milli və Avropa səviyyəsində "qaynar xətlərin" yaradılması və telefon vasitəsilə yardım göstərilməsi təşviq edilə bilər.

***Məlumatlandırıcı və maarifləndirici materiallar***

Avropa Şurası uşaqlara qarşı seksual zorakılıq və nalayiq seksual hərəkətlər barəsində məlumatlılığı artırmaq və kampaniyanın ismarıclarını çatdırmaq üçün materiallar hazırlayıb. Materiallar uşaqlar üçün işləyən və uşaqlarla birgə çalışan rəhbər şəxslər, təşviqat qrupları və mütəxəssislər tərəfindən istifadə edilmək üçün hazırlanıb. Valideynlərin və uşaqların seksual zorakılığın qarşısını almalarına və belə hallar barədə xəbər vermələrinə yardım üçün Avropanın 36 dilinə tərcümə olunmuş konkret məlumatlandırıcı materiallar hazırlanıb (www.underwearrule.org). Yerli və regional hakimiyyət orqanları "BEŞDƏN BİRİ" kampaniyasının materiallarını çap etməli və məktəblərdə, uşaq bağçalarında və çoxsaylı uşaqların olduğu digər müəssisələrdə (gənclər üçün klublarda, gənclər assosiasiyalarında, məsələn, bələdçilərin, skautların birliklərində və s.) geniş şəkildə yaymalıdırlar. (Əlaqə: 1in5@coe.int).

***Uşaqların maarifləndirilməsi***

Uşaqlara qarşı nalayiq seksual hərəkətlər və seksual zorakılıq haqqında, o cümlədən müxtəlif zorakılıq növləri və riskli situasiyalar barəsində məlumatlandırılmaqla uşaqlar seksual istismardan və nalayiq seksual hərəkətlərdən qorunmaq üçün məlumatlı, təhlükəsiz və düşüncəli seçim etmələrinə imkan yaradan bilik və vərdişlər əldə edə bilərlər ki, bu da onların sağlam və pozitiv münasibətlər qurmasına şərait yaratmış olar.

Müəyyən yaş qrupuna ünvanlanan, uşaqların konkret tələbatlarını və qavrayış xüsusiyyətlərini, o cümlədən müxtəlif mədəniyyətlərin xüsusiyyətlərini nəzərə alan və uşaqlar üçün anlaşıqlı dildə təqdim edilən maarifləndirici effektiv materiallar həm ibtidai, həm də orta təhsil səviyyələrində istifadə edilməlidir. Bu yolla uşaqlar seksual zorakılığın nə demək olduğu və belə halların necə aşkar edilməli olduğu barədə məlumat əldə etmiş olurlar ki, nəticədə təhlükəsiz vərdişlərin təşviqi vasitəsilə bu cür halların qarşısının alınmasına köməklik göstərilmiş olur. Həmçinin yeni kommunikasiya texnologiyaları haqqında və İnternetdən istifadə ilə bağlı risklər

barədə məlumatlar, habelə İnternetdə baş verən qanunsuz fəaliyyətlər barəsində necə xəbər vermək haqqında infomasiyalar maarifləndirici məlumatlar sırasına daxil edilməlidir.

İstənilən maarifləndirici və məlumatlandırıcı kampaniya məsləhət və yardım üçün haraya müraciət etmək barədə informasiyaları, məsələn, konkret hədəf qrupuna xidmət edən telefon xətləri və ya yardım telefonları barədə, konkret olaraq milli və Avropa telefon nomrələri haqqında məlumatları özündə ehtiva etməlidir, özü də bu telefionlar adi iş saatları hesab olunmayan vaxtlarda da işləməldiir ki, uşaqlar kimə müraciət etməli olduqlarını bilsinlər. Kiçik və istifadə üçün rahat olan yaddaş kartları, üzərində faydalı telefon nömrələrinin və ünvanların əks olunduğu açar brelokları və ya mobil telefon çexolları bütün məktəblilərə paylanıla bilər, bunlar məktəblilərin öz çantalarında rahat gəzdirə biləcəyi vasitələrdir. Yerli və regional hakimiyyət orqanları maqnitlə soyuducunun qapısına yapışdırılan, yuxarıdakı informasiyaları əks etdirən siyahı hazırlaya bilərlər ki, hər bir ailədə hər bir uşaq onları asanlıqla görə bilsin. Yerli və regional hakimiyyət orqanları məlumatların və yardımın əlçatan olmasını, asanlıqla görülə bilən yerdə olmasını, habelə uşaqların asanlıqla yardım və məsləhət ala bilməsi üçün şəhərin və ya regionun saytında əlaqələndiricinin (linkin) yerləşdirilməsini təmin etməlidirlər. Haraya getmək və kimə müraciət etmək barədə məlumatlar uşaqların tez-tez olduğu yerlərdə – məktəblərdə, oyun qruplarında, gənclər üçün mərkəzlərdə, sağlamlıq mərkəzlərində, ictimai kitabxanalarda, təcili və təxirəsalınmaz yardım xidmətlərində, cinsi sağlamlıq klinikalarında, yerli hakimiyyət orqanlarının saytlarında, kilsələrdə və s. məkanlarda yerləşdirilməlidir.

***Qabaqlayıcı fəaliyyətlərdə tərəfdaşlar***

Lansarote Konvensiyası hakimiyyət orqanlarını uşaq hüquqlarının təşviqi və müdafiəsi üçün müstəqil təsisatlar yaratmağa həvəsləndirir. O, həmçinin uşaqlara qarşı seksual istismar və nalayiq seksual hərəkətlər barəsində ictimaiyyətin məlumatlandırılması üçün şəxsin və ya orqanın, məsələn, uşaq ombudsmanının, uşaq vəkilinin və ya uşaq hüquqları üzrə müvəkkilin təyin olunmasını nəzərdə tutur. Belə orqanlar yerli və (və ya) regional səviyyələrdə yaradıla bilər.

Beynəlxalq, Avropa, milli, regional və yerli səviyyələrdə bir çox təşkilatlar və assosiasiyalar uşaqlar barəsində seksual istismara və nalayiq seksual hərəkətlərə qarşı aktiv fəaliyyət göstərirlər. Onların çoxu məlumatlılığı artıran və informasiya xarakterli sənədlər və materiallar hazırlayıblar ki, bunları da geniş şəkildə yaymaq olar. Yerli və regional hakimiyyət orqanlarının milli assosiasiyaları və hakimiyyət orqanlarının özləri bu materialların geniş şəkildə yayılmasını təmin etmək üçün bu təşkilatlarla birgə işləməlidirlər.

Uşaqlar barəsində seksual istismarın və nalayiq seksual hərəkətlərin gizli cinayət olduğu məlumdur, belə ki, bu əməllərin qurbanı olan uşaq onlar barəsində danışmaqda olduca çətinlik çəkir. Bu durum, habelə məlumatların toplanmasının standartlaşdırılmış və müqayisəli metodlarının olmaması o deməkdir ki, bu problemin miqyasının aydın mənzərəsini yaratmaq çətindir. Yerli və regional hakimiyyət orqanlarının bu sahədə vəziyyətin müşahidəsi və qiymətləndirilməsi üçün məlumatların toplanması mexanizmlərini yaratmaları önəmlidir. Toplanmış məlumatlar sayəsində hakimiyyət orqanları öz regionlarında uşaqlara qarşı seksual istismarın risklərini, miqyasını və xarakterini qiymətləndirə və bu məlumatların əsasında problemə reaksiya verə bilərlər.

**Fəaliyyətlərə dair təkliflər**

- Uşaqlara qarşı seksual istismar və nalayiq seksual hərəkətlər barəsində ictimaiyyətin məlumatlandırılması üçün yerli və ya regional səviyyədə hər hansı şəxsi və ya orqanı təyin etmək
- Siyasət və fəaliyyətlərin məlumatlı şəkildə təşkil edilməsi üçün yerlərdə konkret vəziyyət barədə informasiya toplamaqdan ötrü vətəndaş cəmiyyəti ilə işləmək
- Media ilə əməkdaşlıq etmək
- Şəhərlərin hüdudlarını aşan əməkdaşlığı həyata keçirmək

Vətəndaş cəmiyyəti təşkilatları, eləcə də özəl sektor, xüsusən informasiya və kommunikasiya texnologiyaları sektoru və media uşaqlara qarşı seksual istismarın qarşısının alınmasına və uşaqların müdafiəsinə yönələn proqram və layihələr çərçivəsində yerli və regional hakimiyyət orqanları ilə işləyə bilərlər. Regional səviyyədə əməkdaşlıq şəhərlərin hüdudlarını aşan cinayətkar fəaliyyətlə, məsələn, uşaq alveri ilə məşğul olan şəxslərin müəyyən edilməsində səmərəli ola bilər.

## Dörd prinsip: müdafiə

İdarəetmə orqanları arasında seksual istismarın və nalayiq seksual hərəkətlərin qurbanı olan uşaqlarla ən sıx təmasda olan orqanlar qismində yerli və regional hakimiyyət orqanları uşaqlara himayə fəaliyyətlərinin bütün iştriakçılarını birləşdirən strukturları daha effektiv surətdə yarada və uşaqlar üçün maksimum dəstək və müdafiəni təmin edə bilərlər. Onlar təkcə azyaşlı qurbanların tələbatlarını təmin etmək vəzifəsini deyil, həm də bütövlükdə ailənin strukturunu və cəmiyyətin maraqlarını nəzərə almaq vəzifəsini daşıyırlar. Yerli və regional hakimiyyət orqanları uşaqlar barəsində seksual zorakılığa qarşı mübarizə sahəsində çoxtərəfli yanaşmanı təşviq etməli və koordinasiya olunan çoxsahəli strukturları, prosesləri və mexanizmləri hazırlamalıdırlar.

**<u>Fəaliyyətlərə dair təkliflər</u>**

- Qurumlararası və çoxsahəli yanaşmaya əsaslanan, uşaqların mənafelərinə uyğunlaşdırılan müəssisələr yaratmaq
- Yerli və regional səviyyələrdə məlumatlandırma öhdəliyini tətbiq etmək
- Milli və Avropa səviyyəsində uşaqlara yardım üzrə telefon nömrələrini və ya İnternet ünvanlarını geniş şəkildə yaymaq
- Uşaqlarla işləyən bütün mütəxəssislər üçün seksual zorakılıq və ya nalayiq seksual hərəkətlər barəsində məlumat verməyə dair aydın rəhbər prinsiplər qəbul etmək

***Çoxsahəli mərkəzlər***

Şəhərlər və regionlar qurumlararası əməkdaşlıq strategiyasına əsaslanan kompleks və inteqrasiyalı yanaşma qəbul etməli və aydın funskiya və vəzifələr daşıyan ixtisaslaşmış və konkret təyinatlı orqanlar yaratmalıdırlar, bu orqanlar uşaqların müdafiəsində, onların firavanlığının və rifah halının yaxşılaşdırılmasında iştriak edən bütün yerli xidmətləri birləşdirməlidir. Uşaqların müdafiəsinə yönələn yerli strategiyalar elə hazırlanmalıdır ki, konkret yerli prosedurlar və sistemlər əhatə edilmiş olsun.

Bir çox Avropa ölkələrində uşaqlar barəsində nalayiq seksual hərəkətlərə qarşı mübarizə vəzifəsi bir çox orqanların üzərinə qoyulur ki, onlar da belə halları araşdırmağa borcludurlar. Uşaqlarla dəfələrlə müsahibələr aparılır ki, bu da onların qurban hissini təkrarən yaşamalarına gətirib çıxarır, bu isə onlar üçün öncə baş vermiş nalayiq seksual hərəkətlərdən daha zərərli ola bilər. Lansarote Konvensiyası qurumlararası çoxsahəli kompleks mərkəzlərin yaradılmasını təşviq edir, burada uşaqlara qarşı nalayiq seksual hərəkətlərin araşdırılması ilə məşğul olan bütün mütəxəssislər (uşaqlar üçün sosial təminat və tibb xidmətlərinin işçiləri, hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşları və s.) seksual zorakılığın qurbanı olan uşaqların sonrakı psixoloji təzyiqlərə məruz qalmaması üçün vahid bir məkanda birgə çalışa bilərlər (uşaqların mənafelərinə uyğunlaşdırılan müəssisələr konsepsiyası). Uşaqların müraciət etməsi üçün yerlərin olması önəmlidir, elə yerlər ki, burada onlar etimad mühitində özləri barədə sərbəst və konfidensial şəkildə danışa bilsinlər və özlərini təhlükəsizlikdə hiss etsinlər. Bu mərkəzlər elə təşkil olunmalıdır ki, məhkəmə araşdırmasının məqsədləri üçün uşaqlarla müsahibələr aparmaq və onları tibbi müayinədən keçirmək mümkün olsun, uşaqların durumu hərtərəfli qiymətləndirilsin və onlar müvafiq mütəxəssislər tərəfindən bütün lazımi terapiya xidmətləri ilə təmin edilsinlər, onların dəfələrlə müsahibələrə məruz qalması və qurban hissini təkrarən yaşaması baş verməsin.

Şübhələr barəsində xəbər vermək məcburi öhdəlik olsaydı və konfidensiallıq qaydalarını pozmamaq və ya uşağın etimadını

itirməmək şərti ilə bu öhdəliyə riayət edilsəydi, daha çox uşağı müdafiə etmək olardı. Uşaqlarla işləyən bütün mütəxəssislər üçün rəhbər prinsiplər hazırlanmalıdır, bu prinsiplər mütəxəssislərin öz naraqhatlıqları barədə müvafiq qruruma hansı qaydada məlumat verməsini nəzərdə tutmalı, bu məlumatdan sonra isə yerli və regional hakimiyyət orqanları nalayiq seksual hərəkətlərlə bağlı şübhələrin əsaslı olub-olmadığını müəyyənləşdrimək üçün təhqiqat aparmalıdırlar. Maraqlı tərəflər də uşaqların müdafiəsi və uşaq hüquqları haqqında, habelə uşağın üstün maraqlarının önə çəkilməsinin vacibliyi barəsində məlumatlandırılmalıdırlar.

Milli səviyyədə telefon və ya İnternet vasitəsilə yardım xətləri yoxdursa, onları yaratmaq lazımdır ki, uşaqlar bu xətlərdən sərbəst istifadə edə və anonim qalmaqla məsləhətlər ala bilsinlər.

***Müdafiə fəaliyyətlərində tərəfdaşlar***

QHT-lər və digər vətəndaş cəmiyyəti təşkilatları, xüsusən də qurbanlara yardım göstərilməsi ilə məşğul olan təşkilatlar mühüm tərəfdaşlardır.

## Dörd prinsip: təqib

Lansarote Konvensiyasında bir sıra əməllər cinayət hesab olunur və onların hansı qaydada araşdırılması və təqsirkarların hansı qaydada məsuliyyətə cəlb olunması əsasən milli cinayət qanunvericilyiində təsbit edilməli olan məsələlər olsa da, yerli və regional hakimiyyət orqanları bu sahədə önəmli rol oynayırlar. Bu mərhələdə, o cümlədən istintaq və məhkəmə araşdırması zamanı atılan bütün addımlarda uşağın üstün maraqları, hüquqları və əlverişsiz durumu ilk növbədə nəzərə alınmalıdır.

***Qurbanlara yardım göstərilməsi***

Hakimiyyət orqanları həm ayrıca, həm də QHT-lərlə əməkdaşlıq şəraitində müəyyən tədbirlərin görülməsini, məsələn, məhkəmə araşdırması zamanı pulsuz hüquqi yardım göstərilməsini; uşağın valideynlərinə və bacı-qardaşlarına məsləhətlər verilməsini; habelə uşağa terapiya yardımı göstərilməsini təmin etməlidirlər.

***Hüquqpozanların təqib olunması***

Yerli və regional hakimiyyət orqanları konkret olaraq hüquq pozuntularının təkrarlanmasına yol verməmək üçün uşaqlara müvafiq dəstək xidmətləri göstərilməsini təmin etməlidirlər. Onlar həmçinin hüquqpozanların da öz hüquqları barəsində və onlar üçün mövcud olan xidmətlər haqqında məlumatlandırılmasını təmin etməlidirlər.

## Dörd prinsip: iştirakçılıq

Avropa Şurası hesab edir ki, dinlənilmək hüququ və rəyinə ciddi yanaşılması hüququ hər bir uşağın və gəncin insan ləyaqəti və sağlam inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Yaşları və yetkinlik səviyyələri nəzərə alınmaqla uşaqların və gənclərin rəyləri dinlənilməli və nəzərə alınmalıdır ki, onlara aid bütün məsələlərdə onların üstün maraqlarının ilk növbədə nəzərə alınması hüququ və zorakılıqdan, sui-istifadə hallarından, etinasızlıqdan və pis rəftardan müdafiə edilmək hüququ səmərəli şəkildə təmin edilmiş olsun.[2] Yerli və regional hakimiyyət orqanları atdıqları bütün addımlarda bu pirinsipi rəhbər tutmalıdırlar.

# Regional səviyyədə hansı konkret adımlar atıla bilər?

Lansarote Konvensiyasında nəzərdə tutulmuş bir çox tədbirlərin cinayət və mülki qanunvericilik aktlarında öz əksini tapması bir qayda olaraq dövlətin səlahiyyətinə aid məsələ olsa da, uşaqların müdafiəsi sahəsində bəzi mühüm məsələlər, məsələn, məişət, sosial və tibb xidmətlərinin tənzimlənməsi və təşkili, habelə uşaqların seksual istismara və nalayiq seksual hərəkətlərə məruz qalmasının qarşısının alınması və belə hallardan müdafiəsi sahəsində konkret tədbirlərin görülməsi və strukturların yaradılması regionların səlahiyyətinə aid edilə bilər. Regional hakimiyyət orqanları və parlamentlər Lansarote Konvensiyasının müddəalarının yerinə yetirilməsi üçün onlar

[2] "Yaşı 18-dən az olan uşaqların və gənclərin iştirakçılığı haqqında" Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(2012)2 saylı tövsiyəsi.

tərəfindən hansı qanunverici və inzibati tədbirlərin görülməli olduğunu təhlil etməlidirlər.

## Pakt praktikada necə işləyəcək?

Yerli və regional seçkilərdə seçilmiş nümayəndələr Paktın müddəalarını həm öz həmkarlarının, həm də öz şəhər və regionlarında uşaqların sağlamlığı, rifahı və təhlükəsizliyinə görə cavabdeh olan idarələrin diqqətinə çatdırmağa dəvət olunurlar ki, onlar Paktda təklif olunan təşəbbüslərin həyata keçirilməsi üçün kampaniya apara bilsinlər.

### İnternetdə "Paktın platformasında" qeydiyyat

Yerli və regional orqanların seçkili nümayəndələri Konqressin İnternetdə yerləşdirdiyi "Paktın platformasında" qeydiyyata alına bilərlər (www.coe.int/congress-pact). Paktın müddəalarının yerinə yetirilməsində maraqlı olan, yaxud da artıq təşəbbüslərə başlamış olan şəhərlər və regionlar da qeydiyyatdan keçməyə dəvət olunurlar.

Bu platformada hər kəs yeni təşəbbüslər və strukturlar barəsində, eləcə də artıq mövcud olan tədbirlər haqqında məlumatlar təqdim etmək və hər dəfə yeni fəaliyyətlər həyata keçirilən zaman yenidən platformaya qayıtmaq imkanına malik olacaq. Bu məlumatlar yerli və regional səviyyələrdə "BEŞDƏN BİRİ" kampaniyasının gedişatındakı irəliləyişləri qiymətləndirmək üçün istifadə olunacaq.

## Yerli və regional hakimiyyət orqanları üçün fəaliyyətlərin siyahısı

### Qabaqlama

- ☐ Şəhərin və regionun saytında Avropa Şurasının "BEŞDƏN BİRİ" kampaniyası ilə əlaqələndiricdi (link) yerləşdirmək
- ☐ Uşaqlara gündəlik qulluq mərkəzlərində, məktəblərdə və gənclər üçün mərkəzlərdə uşaqlar və personal üçün məlumatlandırıcı məşğələlər təşkil etmək

- ☐ İnformasiyaların və rəhbər prinsiplərin yer aldığı bülletenləri və vərəqələri yaymaq
- ☐ Yerli və regional mütəxəssislərə təlimlər keçmək
- ☐ Mütəxəssislər və ictimaiyyət üçün müzakirələr və seminarlar təşkil etmək
- ☐ Bu problemlərə diqqəti cəlb etmək üçün "Avropada yerli demokratiya həftəsi"ndən istifadə etmək
- ☐ QHT-lərlə, media ilə və özəl sektorla əməkdaşlıq etmək
- ☐ Uşaqlara qarşı seksual istismar və nalayiq seksual hərəkətlər barəsində ictimaiyyətin məlumatlandırılması üçün yerli və ya regional səviyyədə hər hansı şəxsi və ya orqanı təyin etmək
- ☐ Siyasət və fəaliyyətlərin məlumatlı şəkildə təşkil edilməsi üçün yerlərdə konkret vəziyyət barədə informasiya toplamaqdan ötrü vətəndaş cəmiyyəti ilə işləmək
- ☐ Şəhərlərin hüdudlarını aşan əməkdaşlığı həyata keçirmək
- ☐ Milli və Avropa səviyyəsində uşaqlara telefonla yardım göstərilməsinə şərait yaratmaq
- ☐ Şəhərin və ya regionun saytında operativ yardım və məsləhət üçün əlaqələndirici (link) yerləşdirmək
- ☐ Faydalı telefon nömrələrinin və ünvanların olduğu kiçik və istifadə üçün rahat olan yaddaş kartlarını hazırlamaq və bütün məktəblilərə paylamaq
- ☐ Hər bir ailə üçün maqnitlə soyuducunun qapısına yapışdırılan, faydalı telefon nömrələrinin və ünvanların olduğu siyahı hazırlamaq
- ☐ Uşaqların tez-tez olduğu yerlərdə yardım üçün onların haraya müraciət etməli olduqlarını göstərən plakatlar yerləşdirmək
- ☐ Uşaqlar üçün nəzərdə tutulan maarifləndirici materialları məktəblərdə və gənclər üçün klublarda yaymaq
- ☐ İnternetdə təhlükəsiz davranış barədə bülletenlər və ya vərəqələr yaymaq
- ☐ İnternetdə baş verən qanunsuz fəaliyyətlər barədə xəbər verilməsinə şərait yaratmaq

## Müdafiə

- ☐ Qurumlararası və çoxsahəli yanaşmaya əsaslanan, uşaqların mənafelərinə uyğunlaşdırılan müəssisələr yaratmaq

- ☐ Yerli və regional səviyyələrdə məlumatlandırma öhdəliyini tətbiq etmək
- ☐ Uşaqlarla işləyən mütəxəssislər üçün seksual zorakılıq və ya nalayiq seksual hərəkətlər barəsində məlumat verməyə dair aydın rəhbər prinsiplər qəbul etmək

## Sənədlər və istinad üçün saytlar

- ONE in FIVE, the Council of Europe campaign to stop sexual violence against children
- Council of Europe Convention on the Protection of Children against Sexual Exploitation and Sexual Abuse
- Council of Europe Strategy for the Rights of the Child 2012-2015
- Council of Europe Convention on Action against Trafficking in Human Beings
- Convention on Cybercrime
- European Convention on the Exercise of Children's Rights
- Guidelines of the Committee of Ministers of the Council of Europe on child friendly justice
- Recommendation on the Participation of children and young people under the age of 18
- Discover children’s rights!
- Raise your hand against smacking!
- Wild Web Woo